Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Bir ömrün yolları

**Xalidə Hasilovanın 95 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2015**

Tərtibçi: **Səmədzadə Könül**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Bir ömrün yolları:** Xalidə Hasilovanın 95 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait/tərt. ed. K.Səmədzadə; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.-20 səh

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

# TƏRTİBÇİDƏN

Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələriindən biri də Xalidə Hasilovadır. Onun qələmindən çıxan "Unutmaram", "Onun taleyi", "Yasəmən budağı", "Ana fəryadı", "Nəğməli könül" və onlarca başqa əsərlər maraqla qarşılanmış, oxucu rəğbətini qazanmışdır. Həyatın mənasını xalqına xidmətdə görən söz ustası daim el araslında olub, obrazlarını, qəhrəmanlarını da buradakı insanlar arasından seçib götürüb. Xarici ölkələrə səfərləri zamanı o, el-obasından ayrı düşən həmvətənlilərimizin qonağı olub, onların qohumlarının, əzizlərinin tapılmasına kömək edib. Bu görüşlər bədii və sənədli əsərlər yazmaq üçün ona mövzular verib.

Xalidə Hasilova məhsuldar yazıçıdır. Onun yaradıcılığının ən yaxşı keyfiyyətlərindən biri uşaqların dili ilə danışa bilməsidir.

"Yaşıl ayna", "Xatirə", "Xatirənin sorağı ilə" və digər kitablarında toplanan əsərlər uşaq və gənclərə ən yaxşı insani sifətlər aşılayır.

Yazıçının tərcümə etdiyi əsərlər isə balaca oxucuları dünya xalqlarının mədəniyyəti ilə tanış edir.

Xalidə xanımın dili sadə, səlis və rəvandır. Onun kiçik hekayələri uşaqların mənəvi cəhətdən tərbiyə olunmasına kömək edir. Bu hekayələr uşaqların söz ehtiyatlarının inkişafına bilavasitə xidmət edir.

Xalidə Hasilova respublikamızın ictimai-siyasi həyatında da fəal iştirak edib. O, Azərbaycan Qadınlar Şurası rəyasət heyətinin üzvü, Bakı Şəhər Sovetinin deputatı, qadınların əməyi və analığı mühafizə komissiyasının sədri olmuşdur.



# I bölmə

## Həyat və yaradıcılığı

Sevimli yazıçımız Xalidə Hasilova zəngin yaradıcılıq yolu keçmişdir. 1920-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Zaqatalada dünyaya gəlmiş Xalidə xanım orta məktəbi bitirdikdən sonra Leninqrad (indiki Sankt-Peterburq) Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur.

Əmək fəaliyyətinə doğulub boya-başa çatdığı Zaqatala şəhərində müəllim kimi başlamış, sonralar bütün qüvvəsini Azərbaycan mətbuatının tərəqqisinə həsr etmişdir. Belə ki, "Uşaqgəncnəşr"də redaktor, "Azərbaycan qadını", jurnalında ədəbi işçi, "Göyərçin" jurnalında baş redaktor, "Azərbaycan qadını" jurnalının yaradıcı heyətinin rəhbəri vəzifələrində çalışmışdır. Lakin Xalidə Hasilovanı oxucular daha çox yazıçı kimi tanıyıblar.

Yaradıcı adamın şəxsiyyəti, insani keyfiyyətləri onun sənətkar taleyində də öz əksini tapır, yolunu müəyyənləşdirir...Kiçik hekayələr" kitabı 1950-ci ildə işıq üzü görüb. İlk yazıları ilə həyatın qaynağından gəldiyini, bu həyatın sevinc və fərəhinə, ağrı-acısına bələd olduğunu biruzə verib. Keçdiyi həyat yolu hamar olmayıb. Qazandığı, əldə etdiyi nə varsa, hamısı ağır zəhmət, alın təri bahasına başa gəlib. Tale heç nəyi ona "qızıl boşqabda" təqdim etməyib. Sınağa çəkib, bərkə-boşa salıb, dəfələrlə "dişinə vurub" , dözümünü yoxlayıb. Amma daim üzündə təbəssüm olub. Gülər çöhrəsini görənlər yastığına hopmuş acı göz yaşlarından xəbər tutmayıblar... Aşıb-daşan yaşamaq eşqi dayaq olub ona, çətinliklərdən qalib çıxarıb onu... Kim bilir,

bəlkə həyatın mənası maneələri dəf etmək, çətinliklərə sinə gərməkdir...

Xalidə Hasilovanın qəhrəmanları da özü kimi çətin taleli adamlardır. Yazıçı onları özündən uydurmayıb, oxuduğu kitabların təsiri altında yaratmayıb. Bu qəhrəmanlar müəllifin çətin həyat yollarında rast gəldiyi, ünsiyyət bağladığı, dərdinə-kədərinə şərik olduğu insanlardır. Onların xarakterləri, həyat sərgüzəştləri yazıçı tərəfindən cilalanmayıb, ölçü-biçiyə sığışdırılmayıb. Əksinə, bu xarakterlər həyatın özündəki kimi təzadlı hisslərə, ziddiyyətli emosiyalara məruz qaldığından daha canlı, daha həyatidirlər. Yazıçı qəhrəmanları ilə sanatoriyada, təyyarə və qatarda, yaradıcılıq ezamiyyələrində, küçədə, toyda, qonaqlıqda tanış olub. Bir-birinə bənzəməyən bu adamların qayğısını ürəyinə yük edib, taleyini düşünə-düşünə özünə doğmalaşdırıb. Bu insanları hekayələrinə, povestlərinə, romanına, dram əsərlərinə qəhrəman edərək onları əbədiləşdirib. Bax, elə həyatdan gəldikləri, canlı olduqları üçündür ki, bu qəhrəmanlar ətə-qana dolublar, oxucu məhəbbəti qazanıblar.

Onun müxtəlif illərdə nəşr etdirdiyi “İlk məktub”, “Ləpələr”, “Dəniz çıraqları”, “Atlas yarpaqlar”, “Ləpələr”, “Zəhra”, “Unutmaram”, “Xatirə”, “Məhəbbət olanda”, “Çilçıraq”, “Xatirənin sorağı ilə”, “Ləpəli sahilin xatirələri”, “Onun taleyi” və s. kitabları həyat materiallarının zənginliyi, maraqlı yazılmış tərzi, yüksək ideya-bədii xüsusiyyətlərinə görə geniş oxucu rəğbəti qazanmış, haqlı olaraq ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir.

Xalidə Hasilovanın dram əsərlərinin taleyi də uğurlu olub. Onun “Bir sahilin adamları” əsəri Gənc Tamaşaçılar Teatrının, “Nəğməli könül” əsəri isə Musiqili Dram Teatrının repertuarında özünə möhkəm yer tutub.

Əsərləri bir sıra SSRİ xalqların dillərinə və eləcə də xarici dillərə tərcümə edilmiş, xidmətləri layiqincə qiymətləndirilmişdir.

## Xalidə Hasilovanın 95 illik yubileyi münasibəti ilə tədbirlərin keçirilməsi:

Gözəl insan, istedadlı yazıçı Xalidə Hasilovanın bu il 95 illik yubileyi qeyd olunur. 95 illik ömürdən dönüb arxaya baxanda Xalidə xanımımın əzab-əziyyətli, narahat, sevincli günləri göz önünə gəlir. O, bu çətin günləri yaşaya-yaşaya indiki zirvəyə gəlib çatıb. Böyük ədəbiyyata qədəm basdığı gündən cəsarətli məqalələri, maraqlı hekayə və povestləri ilə oxucular arasında geniş hörmət qazanmışdır.

Xalidə xanım istedadlı nasir olmaqla yanaşı, həm də gözəl tərcüməçidir. Yazıçının tərcümə əsərləri ana dilində elə səslənir ki, onları orijinaldan fərqləndirmək mümkün deyil. Xalidə xanımın tərcümə elədiyi C.Osayevin "Sehirli söz", Ş.Perronun "Büllur başmaq", N.Tixonovun "İgid partizan", Ə.Nesinin "İndiki uşaqlar möcüzədir" və s. əsərləri oxucular tərəfindən maraqla qarşılanıb.

Ədibin yaradıcılığını geniş oxucu kütləsinə daha yaxından tanıtmaq məqsədilə respublikamızın bir çox təhsil müəssələrində-məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda, bir çox mədəniyyət ocaqlarında tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Eləcə də F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planının maraqlı və geniş olması üçün kitabxanaçı əvvəlcə Xalidə Hasilovanın həyat və yaradıcılığı ilə bağlı sərgi və stend hazırlamalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Ömrün yolları", "X. Hasilova-95", "Qələbəyə inamla", "Ləpəli sahilin xatirələri" və s. İndi isə "X. Hasilova-95" adlı sərginin nümunəsini veririk.

***Başlıq:***

1. “X. Hasilova-95”.
2. X. Hasilovanın portreti.
3. Kitablarının nümayişi.
4. Görkəmli insanların X. Hasilova haqqında söylədikləri sitatlar.
5. Dövri mətbuatda çap olunan məqalələrinin kartotekası.

# Görkəmli şəxsiyyətlər
# Xalidə Hasilova haqqnda

Xalidə xanım nəsrimizin daim maraqlı olan hekayə yanrına həmişə sadiqdir. Roman və povestlər yazmaq müntəzəm gərgin əmək, vaxt tələb etsə də o, hekayələr yazmağa da vaxt tapır.

**Hikmət Ziya,**
*əməkdar incəsənət xadimi*

X. Hasilovanın nəsrinə xas olan konkretlik, fikrini mümkün qədər az sözlə ifadə etmək bacarığı onun nə vaxtsa dramaturgiyaya müraciət edəcəyini lap əvvəldən şərtləndirmişdi. Respublika teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuş pyesləri bu fikri bir daha təsdiq edir.

**Svetlana Nəcəfova,**
*Respublikanın əməkdar jurnalisti*

X. Hasilovanın hekayələri gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması kimi vacib bir işə əvəzsiz töhfədir. Bu hekayələrlə tanışlıq oxucuda belə bir inam, qənaət yaradır ki, haqq işimiz mütləq qələbə çalacaq, əzabkeş xalq əldə etdiyi müstəqillik yollarında inamla addımlayacaq, özü öz sərvətinin, taleyinin, torpağının sahibi olacaqdır.

**Ədalət Mehdiyev,**
*polkovnik-leytenant*

Yazıçı əsasən o həyat faktlarını qələmə alır ki, orada qeri-adilik, gözlənilməzlik və ibrətamizlik daha çoxdur.

**Əjdər Ağayev,**
*pedaqoji elmlər doktoru, professor*

Yazıçı Xalidə Hasilovanın yaradıcılığını daha dərindən öyrənmək üçün kitab müzakirəsinin keçirilməsi daha vacibdir. Bu baxımdan da, Xalidə Hasilovanın "Azərbaycan" nəşriyyatında çapdan çıxmış "Xoruzlu dəsmal" kitabının müzakirəsini keçirmək olar. Kitabda yazıçının müharibə mövzusuna aid 8 hekayəsi toplanmışdır.

Müəllif qarşısında müharibənin gedişinin, ayrı-ayrı döyüşlərin geniş, əhatəli təsvirini vermək məqsədi qoymamışdır. Lakin hər bir hekayədə acı həqiqətlər, müharibənin törətdiyi dəhşətlər, faciələr oxucunu dərindən düşündürür, olub-keçənləri götür-qoy etməyə vadar edir, nankor qonşularla davranışında, münasibətdə vaxtilə həddən artıq sadəlövh, unutqan olduğumuzu yada salır.

Xalqımızın müstəqillik, azadlıq uğrundakı mübarizəsində qanlı səhifə olan 20 Yanvar hadisələrinə həsr edilmiş "Yollara yağan qanlı qərənfillər" hekayəsini həyəcansız oxumaq olmur. Taleyin hökmü ilə qürbətdə yaşamağa məcbur olan Nadir kişi vətənini bir an da unutmur, geri qayıtmağa, canından çox istədiyi nəvəsi ilə görüşməyə can atır. Axır ki, Nadir kişiyə vətənə dönmək, onun havası ilə nəfəs almaq səadəti nəsib olur. Nəvəsilə görüşmək fürsəti əlinə düşdüyü üçün sevincdən yerə-göyə sığmır.

Lakin Nadir kişi küçələrə səpələnmiş al qərənfilləri, qərənfildən hörülmüş "xalılar"ı görəndə sarsılır, qırışlı yanaqları ilə axan göz yaşlarını saxlaya bilmir. Nəvəsi ilə şəhidlər xiyabanında görüşəndə isə gözləri qaralır, bütün aləm zülmətə dönür, keçirdiyi iztirablar belini bükür, qəddini əyir.."Qoca xeyli susur, sonra birdən başını yuxarı qaldırıb təəssüflə inildəyir:

- "Kaş gəlməyəydim.."

"Xoruzlu dəsmal" hekayəsində yazıçı cəbhə həyatından ayrı-ayrı epizodlar da qələmə almışdır. On illərlə Bakıda bizimlə qapıbir qonşu kimi yaşamış, vaxtilə süfrəmizin yuxarı başında

əyləşdirdiyimiz ermənilərin ailəlikcə bizə qarşı vuruşduğunu təsvir edən epizodlar xüsusilə təsirlidir.

“Kaş sən də olmayaydın” hekayəsində azərbaycanlı qadınların nəcibliyindən, üzüyumşaqlığından, bəzən bu keyfiyyətlərdən doğan dramatik məqamlardan bəhs olunur.

Hekayənin qəhrəmanı Şahnaz xala qapılarına atılmış körpə oğlan uşağını götürüb böyüdür. Böyüyüb ərsəyə çatmış oğlan isə yuxusuz gecələr keçirmiş, əzab-əziyyət çəkmiş anaya övladlıq borcunu qaytarmaq haqqında yox, onun var-dövlətini ələ keçirmək barədə düşünür. Bu məsələ kəndə soxulan ermənilər tərəfindən huşu itirilənəcən döyülən Şahnaz ananın xəstəxanada oğlu ilə görüşü, söhbəti zamanı açıqlanır. Sən demə, qundaqda Şahnazın qapısına atılmış uşaq erməni balası imiş. Ermənininin xisləti, bəd niyyətti özünü əvvəl-axır büruzə verməli idi və verir də.

Bu kitabındakı hekayələrdə Xalidə xanım Həcər qeyrətli qızlarımızın döyüşlərdə bilavasitə iştirakından, öz qardaş, nişanlı və sevgililərindən geri qalmadıqlarından iftixar hissilə söz açır.

“Kəşfiyyat” hekayəsində tibb bacısı Leylanın ən qorxulu bir döyüş tapşırığını yerinə yetirməsindən, düşmən arxasına kəşfiyyata getməsindən, “İntiqam hissi güc gələndə” adlı hekayədə döyüşlərdə qəhrəmanlıqla həlak olmuş nişanlısını əvəz edən snayper Səmayənin igidliyindən iftixarla danışılır. “Son nida”, “Məhəbbətdən yoğrulan qısqanclıq”, “Gözlənilməz zəng” hekayələrində isə erməni qəsbkarlarına qarşı ölüm-dirim vuruşlarında əsil cəsurluq numunələri göstərən vətən övladlarının sədaqətindən, düşmənə sonsuz nifrətindən bəhs olunur.

Xalidə Hasilovanın hekayələri gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması kimi vacib bir işə əvəzsiz töhvədir. Bu hekayələrlə tanışlıq oxucuda belə bir inam, qənaət yaradır ki,

haqq işimiz mütləq qələbə çalacaq, xalqımız müstəqillik yollarında inamla addmlayacaq, öz taleyinin, torpağının sahibi olacaqdır.

Xalidə Hasilovanın yubileyi ilə bağlı Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən ən maraqlısı və yaddaqalanı da nağıl otağında keçirilən "Nağıl saatı"dır. "Nağıl saatı"ında kitabxanaçı kiçikyaşlı oxuculara yazıçı haqqında müəyyən məlumat verir.

Əziz balalar! Siz yəqin ki, yazıçı-dramaturq Xalidə Hasilovanı uşaqların həyatından bəhs edən maraqlı hekayələrindən tanıyırsınız. Bildiyiniz kimi, bu il Xalidə Hasilovanın 95 illik yubileyi qeyd olunur.

Məktəb həyatı, uşaq dünyası Xalidə xanımı hələ gənc yaşlarından yazıb-yaratmağa həvəsləndirmişdir. O, 1948-ci ildə universiteti bitirib, "Uşaqgəncnəşr"də çalışmağa başlayanda uşaqların həyatından bəhs edən ilk hekayələrini və povestlərini yazmışdır. Onun bir-birinin ardınca nəşr edilən "Kiçik hekayələr", "Lalənin kitabı", "İki yoldaş", "Ulduzlu papaq", "Atlas yarpaqlar", "Yaşıl ayna" və s. kitabları balaca oxucuların marağına səbəb olmuşdur.

Xalidə xanım "Göyərçin " jurnalının baş redaktoru işlədiyi illərdə uşaq yazıçısı, "Azərbaycan qadını" jurnalına başçılıq etdiyi dövrlərdə isə nasir, daramaturq kimi tanınmışdır.

İndi isə gəlin Xalidə Hasilovanin uşaqlar üçün yazdığı **"Tısbağa və əqrəb"** nağılını dinləyək.

Bir gün əqrəb tısbağanın yanına gəlib dedi:

-Gəl dost olaq!

Tısbağa onun sözünə əhəmiyyət vermədi. Başını qınına çəkib fikirləşdi.

Əqrəb isə əl çəkmədi.

- Mən dostluqda çox etibarlıyam. Kiminlə dost olsam, ömrümün axırınadək ondan ayrılmaram.
Tısbağa çox fikirləşdi. Axırda başını qınından çıxarıb razı oldu.
Əqrəb çox sevindi. O gündən tısbağaya qoşulub birgə gəzməyə başladı. Tısbağa hara gedirdisə əqrəb də onun dalınca sürünürdü.
Çölü, çəməni, bulaq başını birlikdə gəzdilər. Meşəyə getdilər, yerə tökülmüş yarpaqların üstü ilə süründülər. Gecələr kolların dibində büzüşüb yatdılar. Siz elə güman eləməyin ki, tısbağa büzüşə bilməz. O da başqaları kimi, lap yaxşıca büzüşüb yuxuya gedir: ayaqlarını, başını qınına çəkir, gözlərini yumur, beləliklə, rahatca yuxuya gedir. Uzaqdan baxanda, təkcə çanağı görünür, elə bil, naxışlı daş parçasıdır.
Onlar çox gəzdilər, çox yoruldular. Bir dəqiqə də olsun bir-birindən ayrılmadılar. Nəhayət, bir çaya gəlib çatdılar. Əqrəbin canına vahimə düşdü. Axı o nə suyu sevir, nə də üzməyi bacarırdı. Tısbağa yoldaşının təşvişə düşdüyünü görüb ona təsəllli verməyə başladı.
- Fikir çəkmə dostum, dedi, üzməkdə mənə heç qurbağa da çata bilməz. Belimə minərsən. Səni rahatca o taya keçirərəm. Bəs dostluq nə gündə lazımdır?!
Əqrəb tısbağanın bu sözlərindən çox sevindi. Tez sürünüb naxışlı belinə çıxdı. Tısbağa ayaqlarını işə saldı, suyu ördək kimi səsizcə yarıb üzməyə başladı.
Çay çox enli, həm də dərindi. Əqrəb tısbağanın quru belində əyləşib onun üzməsinə ləzzətlə tamaşa edirdi. Birdən onun kefi duruldu. Əylənmək fikrinə düşdü. Nə etsin, nə etməsin? Axırda neştərini çıxarıb tısbağanın belini sancmağa başladı. Onun neştəri tısbağanın naxışlı çanağına bata bilmirdi. Ancaq tısbağa başa düşürdü ki, əqrəb neştərini onun çanağına sancır.
- Tısbağa gülümsəyib soruşdu:

- Əqrəb, dostum, nə edirsən?

Əqrəb özünü təmizə çıxarmağa çalışdı:

- Dostum tısbağa, dedi, mən səni sancmaq istəməzdim, ancaq bizim adətimiz sancmaq olduğu üçün özümü saxlaya bilmədim.

Tısbağa onun bu sözlərinə gülümsədi və birdən çayın dibinə baş vurdu.

O suyun üzünə çıxdığı zaman əqrəb suyun üstündə çabalayırdı:

- Tısbağa qardaş, sən nə etdin? Kömək elə, boğuluram. Dadıma çat!

Tısbağa ona baxıb dedi:

- Əqrəb qardaş, sən nə etdin? Mən səni batırmaq istəməzdim. Ancaq bizim adətimiz suya tez-tez baş vurmaq olduğu üçün özümü saxlaya bilmədim.

Tısbağa bunu deyib yenə suya baş vurdu və gözdən itdi. Əqrəb isə çabalaya-çabalaya suyun dibinə getdi.

Sonda kitabxanaçı uşaqlara dostluq, xeyirxahlıq, sadiqlik mövzusunda bir çox suallarla müraciət edir.

Sevimli yazıçı, ictimai xadim Xalidə Hasilovanın əziz xatirəsini yad etmək üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında ədəbi-bədii gecənin keçirilməsi də nəzərdə tutulmuşdur. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirlərin keçirilməsində məqsəd yazıçı Xalidə Hasilovanın yaradıcılığı ilə daha yaxından tanış olmaq, onun qələmindən süzülüb gələn hekayə və povestləri oxuculara çatdırmaqdan ibarətdir. Belə tədbirlərə hazırlıq iki ay öncədən başlayır. Kitabxanaçı ədəbi-bədii gecəyə bir çox tanınmış şair və yazıçıları, ədəbiyyat müəllimlərini, Xalidə Hasilovanın yaradıcılığını sevənləri dəvət edir. Birinci hissə şairin həyat və yaradıcılığı ilə bağlı çıxış və məruzələrlə başlayır. İkinci hissə isə yazıçının bir çox hekayə və povestlərindən səhnəciklərlə davam

etdirilir. Ədəbi-bədii gecə bir çox başlıqlar altında keçirilə bilər. Məsələn, “Kövrək hisslərin işığında”, “ 95 yaşın zirvəsindən geriyə baxanda”, “Bir ömrün yolları”, “X.Hasilova-95”, “İstedadlı yazıçı Xalidə Hasilova” və s. İndi isə “Bir ömrün yolları” adlı ssenarinin nümunəsini veririk.

**1-ci aparıcı:** Xalidə Hasilova 1920-ci ilin aprel ayında Zaqatala şəhərində anadan olmuşdur. Bu yerlərin füsunkar təbiəti, zəhmətkeş insanları onun xatirəsində dərin iz salmışdır. İlk və orta təhsilini doğma rayonda alan Xalidə Hasilova əvvəlcə Zaqatala Pedaqoji Texnikumunu bitirmiş, bir müddət Qımır kəndində müəllim işləmişdir. Sonra isə ali təhsil almaq üçün Bakıya üz tutmuşdu. Tale elə gətirmişdi ki, o, 1939-cu ildə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. 1941-ci ildə müharibə başladığından Bakıya qayıtmış, təhsilini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir. Ali məktəbi bitirdikdən sonra yenidən Zaqatalaya dönən Xalidə Hasilova bir müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Xatirələrində yazırdı ki, o, lap uşaqlıqdan yaradıcılığa meyl göstərmişdir. Hətta Xalidə xanım əvvəllər şeirlər yazarmış. Nədənsə sonralar nəsrlə məşğul olmağa başlamışdır. Müharibədən sonrakı illərdə Moskvada xarici dillər kursunda türk şöbəsinin dinləyicisi olan Xalidə Hasilova 1948-ci ildə Bakıya qayıdıb. “Kiçik hekayələr” adlı ilk kitabı 1950-ci ildə çap edilmişdir. Müxtəlif nəşriyyatlarda çalışan Xalidə xanımın 20-dən artıq kitabı işıq üzü görmüşdür. Bunlardan “ Sular durulur”, “Onun taleyi”, “Kaman”, “Atlas yarpaqlar”, “Nəğməli könül”, “Xatirə”, “Ana fəryadı” və başqalarını göstərmək olar.

**2-ci aparıcı:** Hər sənətkarın can atdığı bir zirvə var. O zirvəyə çatdımı dayanır...Xalidə Hasilova da “Çəhrayı rəng” povesti ilə

yaradıcığının zirvəsinə çatdı. Bu povestdə qürbətdəki qəriblərimizin vətən həsrəti, oğul gözləməkdən gözləri nurdan düşmüş ananın niskili, jurnalist qızın vətəndaşlıq borcu, fədakarlığı çox təbii və təsirli qələmə alınıb. Povest oxucunun ürəyində özünə yer tapan, maraqla qarşılanan nəsr nümunələrindən biri oldu. Təsadüfi deyil ki, respublikanın bir çox dövlət və xalq teatrları bu əsərə səhnə həyatı verdilər.

**2-ci aparıcı:** Ədəbiyyata xidmət müəllifin kimliyi ilə deyil, ədəbi əsərinin uğuru ilə qiymətləndirilir. İyirminci əsr Azərbaycan nəsrində və publisistikasında Xalidə Hasilovanın da uğuru var, özünəməxsus yeri var. Sevimli yazıçımız ədəbi yaradıcılıqda olduğu kimi, Azərbaycan milli mətbuatının inkişafında özbacarığını əsirgəməyib. Belə ki, “Azərbaycan qadını” ( 1923-cü ildən çıxmağa başlayıb) jurnalına 25 il baş redaktorluq edib. Ondan əvvəl isə 6 il “Göyərçin” jurnalının baş redaktoru vəzifəsində çalışıb. Demək istəyirik ki, Xalidə Hasilova gözəl yazıçı olmaqla bərabər, həm də peşəkar jurnalist, bacarıqlı rəhbər işçi idi. Onun redaktəsi ilə çıxan jurnalları vərəqləyəndə heyrətlənirik. Azərbaycan qadının həyatı, mübarizəsi, müdrikliyi, fədakarlığı bu jurnalın səhifələrində necə də dolğun və bitkin işıqlandırılıb.

Xalidə Hasilovanın “Həsrət”, “Həyat özü bir nəğmədir”, “Bir sahilin adamları”, “Hamı doğmadır mənə”, “Nəğməli könül” pyesləri müxtəlif teatrların səhnəsində tamaşaya qoyulmuş, əsərləri rus və türk dillərinə tərcümə olunmuşdur.

Azərbaycanın Əməkdar Mədəniyyət İşçisi, “Şərəf nişanı” və “Qırmızı Əmək bayrağı” ordenləri ilə təltif edilmiş görkəmli yazıçı Xalidə Hasilova 1996-cı il dekabrın 5-də Bakıda vəfat etmişdir.

Gəlin Xalidə Hasilovanın oxucularin ifasinda “ Niyə mənim babam yoxdur?” adlı hekayəsinə qulaq asaq. Səhnəyə aparıcı, ana və uşaq daxil olur.

**1 Aparıcı:** Altay bir gün anasından soruşdu:

Altay: Ana, niyə mənim babam yoxdur? Mən də istəyirəm ki, mənim  babam olsun.
Aparıcı: Anası Altayın başını qucaqlayıb dedi:
Ana: -Sənin də baban vardı.
Altay:  -Bəs hanı? O indi başqa yerdədir? Çağıraq gəlsin.
Aparıcı: Ana başını buladı:
Ana: -Yox, oğlum, dedi, o artıq yoxdur...
Aparıcı:  Ana köksünü ötürdü:
Ana:  - O müharibəyə getdi, geri qayıtmadı.
Altay:  - Nə üçün qayıtmadı?
Aparıcı:  Ana oğlunun yanaqlarından öpdü:
Ana: - O, bizi düşmənlərdən qoruyanda həlak oldu...
Aparıcı: Ana bu sözləri deyəndən sonra bir şəkil gətirib Altaya göstərdi:
Ana: - Sənin baban bu idi.
Aparıcı: Altay şəkili əlinə aldı. Diqqətlə baxdı. Başında ulduzlu papaq olan  ortayaşlı bu əsgər gülümsəyə-gülümsəyə şəkildən Altaya baxırdı. Bu, onun babası idi. Altayın qaşları çatıldı. Babasını əlindən almış  müharibə Altayın əlinə düşsəydi, onu yəqin ki, dişi ilə, dırnaqları  ilə didib, parçalayardı... O gündən sonra, Altayın nəzərində, dünyada ən pis, ən dəhşətli sey müharibədir.
*Səhnəciyin sonunda kitabxanaçı məktəblilərə müharibənin dəhşətlərindən danışır. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman oğullarımızın göstərdiyi şücaətlərdən söhbət açır.. Şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad ediir..*
**2-ci aparıcı:** Əziz tədbir iştirakçıları! Mənalı həyatın dəyəri maneələri dəf etməkdə, çətinliklərə sinə gərməkdədir. Bəlkə də ona görə hər birimizin  taleyi, ömür yolumuz özümüzə əzizdir X. Hasilovanın da ömür yolu bu çətinliklərdən keçib. Qəhrəmanları da özü kimi çətin taleli adamlardır. Sözünü kövrək hisslər işığında deyən Xalidə xanım bir  yazıçı kimi çox işlər görmüşdür. Xalqımızın haqq, ədalət mübarizəsi ilə səsləşən əsərlər yazmışdır. Son olaraq onu demək istəyirik  ki, Xalidə Hasilovanın

müasirliyini heç vaxt itirməyən əsərləri və xatirəsi həmişə xalqımızın qəlbində yaşayacaqdır.

**İnternetdə:**

- www. Azerbayjan.news. az.
- www.  gooqle az.
- www.  kitab. az.

## Ədəbiyyat siyahısı


1. X. Hasilova. Kaman, B.: Gənclik, 1972. – 184 s.
2. X. Hasilova.  Nəğməli Könül, B.: Gənclik, 1976. – 176 s.
3. X. Hasilova.  Xatirə B.: Gənclik, 1978. – 127 s.
4. X. Hasilova.  Xatirənin sorağında. B.:Yazıçı, 1983. – 240 s.
5. X. Hasilova.  Ləpəli sahilin xatirələri. B.: Gənclik, 1983. – 300 s.
6. X. Hasilova. Ana fəryadı. B.:Yazıçı, 1989. - 280 s.
7. Əlamətdar və tarixi günlər təqvimi - 2015

**Xalidə Hasilovanın 95 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** ***Könül Səmədzadə***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:20.06.2015
Tirajı:100
Pulsuz